## Qaz təhçizatı sahəsində yaranan suallar

**1. Qaz pulunun məbləği nəqədərdir?**
Təbii qazın pərakəndə satış tarifi 1000 $m^3$ üçün (ƏDV ilə) - 100,0 manat(1 $m^3$ - 10qəpik).

**2. Fərdi istifadəçilər və hüquqi şəxslər arasında qaz pulunun ödənilməsində fərq varmı?**
Xeyr, qaz haqqının ödənilməsində bütün istehlakçılar qrupları üçün eyni tarifdir.

**3. Qaz pulu hara və hansı formada ödənilməlidir?**
Qaz paylayıcısı istehlakçıya verdiyi qazın dəyərini yalnız sayğacın göstəricilərinə əsasən tam hesablamalıdır və hər ay istehlakçıya məlumat (hesab) təqdim etməlidir (göndərməlidir). İstehlakçı şəxsən ödəmələri adiyytı üzrə poçt bölmələrinə və ya müvafiq banklara ödəməlidir.

**4. Qaz təchizatı hansı hallarda dayandırıla bilər?**
Qaz paylayıcısı aşağıdakı hallarda qazın verilməsini dayandıra bilər: istehlakçının müvafiq yazılı müraciəti (qaz təchizatının dayandırılmasının səbəbi və müddəti göstərilməklə) olduqda; təmir-profilaktika və qəza işləri görüldükdə, o cümlədən baş verən yanğının və ya qaz sızmasının qarşısı alındıqda; istehlakçının qaz qurğusu Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi dövlət standartlarının tələblərinə cavab vermədikdə; paylayıcının istehlakçıya verdiyi qazın sayğacla müəyyənləşdirilən hesabı istehlakçıya paylayıcı tərəfindən təqdim edildikdən (göndərildikdən) sonra **bir ay** müddətində tam ödənilmədikdə; paylayıcı ilə müvafiq müqavilə bağlanmadıqda; məhkəmənin qərarı ilə.

**5.Sayğac quraşdırılmıyan evlərdə hesablama necə aparılır?**
Əgər abonentin mənzilində sayğaclaşma aparılmayıbsa bu zaman vətəndaş sərf etdiyi mavi yanacağın dəyərini metodiki hesablama əsasında ödəməlidir. Yəni, abonentin evində İnventarizasia aparılır və istifadə edilən cihazlar mövsümi tarif əsasında sərfiyyat üzrə ödəniş edilir.

**6.Yaşayış evinin qazlaşdırılması proseduru?**
Qazlaşdırılma prosesi "Bir pəncərə" prinsipi əsasında həyata keçirilir. Vətəndaş "Azərqaz" İB yerli qaz istismar sahəsinin (bundan sonra QİS) texniki şöbəsinə standart formada tərtib olunmuş və müvafiq qaydada doldurulmuş istifadə edilən qaz cihazlarının növünü və saylarını göstərməklə ərizə təqdim edir. Ərizə ilə birlikdə həmçinin şəxsiyyət vəsiqəsinin surəti, mülkiyyət hüququn təsdiq edən sənədin (çıxarış, şəhadətnamə(kupça)), torpaq sahəsinin ayrılması barədə sərəncamın (qərarın) və ya torpaq sahəsində evin tikilməsinə icazə verilməsi barədə sərəncamın(qərarın) surəti təqdim edilir. Həmçinin QİS tərəfindən texniki baxış keçirilidikdən sonra tələb olunan vəsaitin ödənilməsi barədə qəbz əlavə olunur.Sonunda sayğac quraşdırılandan sonra istismara qəbul aktı tərtib olunur və vətəndaşa abunəçi kodu barəsində rəsmi məlumat verilir.

**7. Qazlaşdırmanın qiyməti?**

Fiziki şəxs olan istehlakçıların sayğaclarla təchiz edilməsi, onların quraşdırılması və dəyişdirilməsi qaz paylayıcısı hesabına həyata keçirilir. Vətəndaşın xərclərinə aid olan layihə-smeta sənədlərinin hazırlanması üçün nəzərdə tutulan 62.81AZN ("Azərqaz" İB-nin hesabına ödənilir) və tikinti daxili xətlərin çəkilməsi haqqıdır. Həmin xətlərin çəkilməsi işlərinin dəyəri sifarişçi ilə tikinti təşkilatı arasında bağlanan müqavilə ilə tənzimlənir. Vətəndaş tikinti-quraşdırma işlərinin aparılması lisenziyası olan başqa tikinti təşkilatı ilə müqavilə bağlaya bilər və müqavilədən asılı olaraq ödəmələr etməlidir.

**8. Sayğacın işləmədiyi abonent tərəfindən aşkar olunarsa nə etməli?**
Vətəndaş nöqsan aşkar etdiyi zaman dərhal yerli Qaz İstismar Sahəsinin qaynar xəttinə (104) zəng etməli və ya QİS-nin yerli dispetçer xidmətinə yazılı müraciət etməlidir.

**9. İdarə Nümayəndəsi tərəfindən abonentin qaz sayğacında nöqsan aşkar edildiyi zaman hansı tədbirlər görülməlidir?**
Nümayəndə abonentin qaz sayğacında nöqsan aşkar edərsə bu zaman vətəndaşa və öz idarə rəhbərliyinə yazılı şəkildə müraciət olunmalıdır. Müraciət olunduqdan sonra isə QİS-nin nümayəndələri abonentlə bilrikdə nöqsan aktı tərtib edərək vətəndaşın son aylarda (mövsümü ödənişlər nəzərə alınmaqla) ödənişləri əsasında ortaq aylıq ödəniş tərtib olunur ki, abonent yeni sayğac quraşdırılana qədər həmin ödənişi ödəməlidir.

**10. Sayğaca müdaxilə aşkar edildiyi halda aktlaşdırma proseduru necə həyata keçirilir?**
Abonet tərəfindən qazdan istifadədə pozuntuya yol verildiyi aşkar edildikdə, QİS nümayəndəsi onun və iki nəfər hal şahidinin iştirakı ilə akt tərtib edir və aktın bir nüsxəsini abonentə verir. Akt QİS nümayəndəsi, abonent və iki nəfər hal şahidi tərəfindən imzalanmalıdır. Abonent aktı imzalamaqdan imtina etdikdə bu barədə aktda müvafiq qeyd aparılır. Abonentin izahatları və mülahizələr akta əlavə olunur.